Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

İyun 2022

www.ereforms.gov.az
info@ereforms.gov.az

“

**Bu il ümumi daxili məhsul 7.2 faiz artıb.**

Enerji amili, enerji diplomatiyası və bütün layihələr bizim iqtisadi potensialımızı gücləndirir, bizə imkan yaradır ki, cəsarətli islahatlarla yanaşı, neft-qaz sektorundan əldə etdiyimiz gəlirlər iqtisadiyyatımızın qeyri-neft sektoruna yönəldilsin. Biz bunun nəticəsini görürük və diqqətinizə cari ilin bəzi göstəricilərini təqdim etmək istəyirəm. Bu il ümumi daxili məhsul 7.2 faiz artıb. Qeyri-neft sektorunda artım 11.5 faiz, qeyri-neft sənayesində artım 15 faizdən artıq olub. Bütün bunlar islahatların və topladığımız gəlirlərin yönləndirilməsinin təzahürüdür.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 2022-ci il 01 iyun tarixində Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimindəki nitqindən**

2022
İXRAC İCMALI
iyun

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 13

"Azərkosmos"a aid xidmət ixracı haqqında məlumat ____ səh. 16

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ____ səh. 18

Azexport.az portalına daxil olan sifarişlər haqqında məlumat ____ səh. 20

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ____ səh. 23

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2022-ci ilin yanvar-may ayları ərzində 15,4 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-may aylarında qeyri-neft sektoru üzrə ixrac **1,2 milyard ABŞ dolları** təşkil etmişdir

2022-ci ilin yanvar-may ayları ərzində Azərbaycanın ixracı **15,4 mlrd. ABŞ dolları**, qeyri-neft sektoru üzrə **1,2 mlrd. ABŞ dolları** təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2021-ci il ilə müqayisədə **280,6 mln. ABŞ dolları** və ya **30,9% artıb**.

2022-ci ilin yanvar-may ayları ərzində meyvə-tərəvəz məhsulları ötən ilin eyni dövrü ilə müqayisədə 6,4% artaraq 219,2 milyon ABŞ dolları təşkil edib. Müvafiq dövr ərzində kimya sənayesi məhsullarının ixracı 8 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixracı 2 dəfə, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 49,8%, pambıq iplik ixracı 23,7%, pambıq lifi ixracı isə 14,5% artıb.

2022-ci ilin yanvar-may ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (123,7 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda tomat (pomidor) (91 milyon ABŞ dolları)

ikinci, karbamid (84,1 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2022-ci ilin yanvar-may ayları ərzində Türkiyəyə 390,2 milyon ABŞ dolları, Rusiya Federasiyasına 263,4 milyon ABŞ dolları, Gürcüstana 74,7 milyon ABŞ dolları, İsveçrə Konfederasiyasına 66,4 milyon ABŞ dolları və ABŞ-a isə 44,5 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2022-ci ilin may ayı üzrə ixrac 3,6 mlrd ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım 5,7% təşkil etməklə 222,4 mln. ABŞ dolları olub. 2022-ci ilin may ayı ərzində yeyinti məhsulları üzrə ixrac 66,4 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 24,7% artaraq 156 milyon ABŞ dolları təşkil edib.

2022-ci ilin may ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (71,7 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (56,5 milyon ABŞ dolları) ikinci və Hindistan (17 milyon ABŞ dolları) üçüncü olub.

2022-ci ilin may ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında tomat (pomidor) (32,8 milyon ABŞ dolları birinci, pambıq mahlıcı (21,2 milyon ABŞ dolları) ikinci və karbamid (15,9 milyon ABŞ dolları) üçüncü olub.



# 2022-Cİ İLİN YANVAR-MAY AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2022-Cİ İLİN MAY AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2022
İXRAC İCMALI
iyun



# 2022-Cİ İLİN MAY AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2022-Cİ İLİN YANVAR-MAY AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2022-Cİ İLİN MAY AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2022-Cİ İLİN YANVAR-MAY AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI iyun

■ 2022 ■ 2021

| Mal | 2022 | 2021 |
| --- | --- | --- |
| Pambıq mahlıcı | 123,7 | 108,6 |
| Tomat (pomidor) | 91 | 87 |
| Karbamid | 84,1 | 2,2 |
| Qızıl | 62,9 | 87,4 |
| Metanol (metil spirti) | 60 | 3,3 |
| Meşə fındığı | 52,3 | 37,8 |
| PP İlkin formalı polipropilen | 40,5 | 44,2 |
| Elektrik enerjisi | 35,1 | 30,3 |
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 35 | 40,4 |

# 2022-Cİ İLİN YANVAR-MAY AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2022 | 2021 |
|---|---|---|
| ALU Emal olunmamış alüminium | 34,8 | 10,9 |
| Alüminium ərintilərindən plitələr | 33,8 | 21,4 |
| Polimerləşmədə ilkin formalı maddələr | 33,4 | 17,7 |
| Aşqarlanmamış alüminiumdan plitələr | 32 | 16,8 |
| Xurma | 30 | 31,9 |
| Digər yağlar və məhsullar | 28,4 | 19,9 |
| PE Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 27,3 | 21 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 18,3 | 8,1 |
| Tərkibində 0,25 kütlə %-dən az karbonlu düzbucaqlı polad yarımfabrikatlar | 16,7 | 7,4 |

# 2022-Cİ İLİN MAY AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2022 | 2021 |
|---|---|---|
| Tomat (pomidor) | 32,8 | 44,7 |
| Pambıq mahlıcı | 21,2 | 12,2 |
| Karbamid | 15,9 | 0,3 |
| Qızıl | 14,9 | 22,8 |
| Kartof | 12,7 | 19,2 |
| Metanol (metil spirti) | 9,4 | 3,3 |
| Aşqarlanmamış alüminiumdan plitələr | 9,2 | 1,7 |
| Emal olunmamış alüminium ərintiləri | 6,3 | 2,3 |
| Digər yağlar və məhsullar | 6,1 | 7,9 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2022-ci ilin yanvar-may ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: “MKT İstehsalat Kommersiya” MMC, “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, “P-Aqro” MMC, “STP Alüminium” MMC, “Aqrovest” MMC, “ZR-78 Company” MMC, “Mors Trading” MMC, “Baku Steel Company” QSC, “Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD” MMC, “AzMet” QSC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: “Azəralüminium” MMC, “Socar Polymer” MMC, “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC, “Azərenerji” ATSC, , “AzerGold” QSC, “Azəripək” MMC, “Azərbaycan Hava Yolları” QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti, “Azərbaycan Dəmir Yolları” QSC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2022-Cİ İLİN YANVAR-MAY AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2022-Cİ İLİN YANVAR-MAY AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI iyun



3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2022-ci ilin yanvar-may aylarında "Azərkosmos" ASC 10,8 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2022-ci ilin yanvar-may aylarında "Azərkosmos" tərəfindən dünyanın 33 ölkəsinə **10,8 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. "Azərkosmos"-un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **87 faizini** təşkil edib. 2022-ci ilin may ayında isə "Azərkosmos" dünyanın 31 ölkəsinə milyon 2,3 milyon ABŞ dolları dəyərində xidmət ixrac edib.

2022-ci ilin yanvar-may ayları ərzində peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracının ilk beşliyində isə **2,8 milyon ABŞ dolları** ilə Birləşmiş Krallıq, **2,2 milyon ABŞ dolları** ilə Fransa, **1,8 milyon ABŞ dolları** ilə Lüksemburq, **1,1 milyon ABŞ dolları** ilə BƏƏ və **0,6 milyon ABŞ dolları** ilə Pakistan qərarlaşıb.

# 2022-Cİ İLİN YANVAR-MAY AYLARINDA "AZƏRKOSMOS" 10,8 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR





4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2022-ci ilin yanvar-may ayları ərzində Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 870,4 milyon manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2022-ci ilin may ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **184,1 milyon manat** təşkil edib. 2022-ci ilin yanvar-may aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **870,4 milyon manatlıq** əməliyyat aparıblar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ İLƏ APARDIQLARI ƏMƏLİYYATLAR

(milyon manatla)

2022 İXRAC İCMALI iyun

| | 2020 | 2021 | 2022* |
|---|---|---|---|
| Yanvar | 85,2 | 72,2 | 204,7 |
| Fevral | 72,9 | 112,2 | 186,5 |
| Mart | 53,9 | 93,2 | 158,5 |
| Aprel | 19,7 | 64,1 | 136,6 |
| May | 24,3 | 81,3 | 184,1 |
| İyun | | | |
| İyul | | | |
| Avqust | | | |
| Sentyabr | | | |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| | **256 mln** | **423 mln** | **870,4 mln** |

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

5

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN SİFARİŞLƏR HAQQINDA MƏLUMAT

## Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri 3 milyard 049 milyon ABŞ dolları təşkil etmişdir

2022-ci ilin may ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **52,3 milyon** ABŞ dolları təşkil edib.

2022-ci ilin yanvar-may aylarında Azexport.az portalına **215 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olub. 2022-ci ilin may ayında Azexport.az portalına edilən ixrac sifarişlərinin tərkibində alma şirəsi, nar konsentratı, pomidor, tibbi tənzif, pambıq çiyidi, günəbaxan yağı, qarğıdalı yağı, buğda kəpəyi, toyuq əti, biyan kökü, kərpic (tikinti materialı) və s. məhsullar üstünlük təşkil edib.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2022-ci ilin 31 may tarixinə kimi (65 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **3 milyard 049 milyon ABŞ dolları** təşkil edib.

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ
(milyon ABŞ dolları ilə)









# 2022-Cİ İLİN MAY AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2022 İXRAC İCMALI iyun



# 6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT



## 2022-ci ilin iyun ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 20 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2022-ci ilin iyun ayı ərzində **191 müraciət** daxil olub. Müvafiq dövr ərzində **389 ədəd sertifikat** (90 ədəd mənşə, 15 ədəd baytarlıq, 268 ədəd fitosanitar, 16 ədəd CİTES) təqdim edilib.

2022-ci ilin iyun ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **20 milyon ABŞ dolları** dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq mahlıcı, pambıq çiyidi, pendir, tibbi zəli, təmizlənmiş duzlanmış qoyun bağırsağı, iribuynuzlu heyvanların dondurulmuş qarnı, yun örtüyü olmayan pikellənmiş qoyun dərisi, iribuynuzlu heyvanların emal olunmamış gönlərin kəsikləri, balıq kürüsü, spirtli içkilər, nar, heyva, albalı şirələri, narşərab, təzə soyudulmuş som balığı, dondurma, dondurma vaflisi, biyan kökü, tullantı qida yağları, istifadəyə yararsız elektron tullantı, mikrofiber dəsmal, ağcaqayın şponu, məzar daşı, polad boru, polad armatur yayması, yeşiklərdə fermentləşdirilmiş qara çayın ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metallar, pambıq mahlıcı, polad boru, yeşiklərdə fermentləşdirilmiş qara çay, meyvə şirələrinin ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Türkiyə, Rusiya, Tatarıstan, Qazaxıstan, İtaliya ABŞ, Yeni Zelandiya, Polşa, Macarıstan, Gürcüstan, İraq, İran, BƏƏ, Honq-Konq, Moldova, Myanma, Belçika, İsrail, Almaniya üstünlük təşkil etmişdir.



# 2022-Cİ İLİN İYUN AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI
(milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI iyun



# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR

(faizlə)

2022 İXRAC İCMALI iyun

**69,1%** Fitosanitar sertifikatı

**22,9%** Mənşə sertifikatı

**4,1%** CİTES sertifikatı

**3,9%** Baytarlıq sertifikatı

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.



Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat